*Nizamişünaslıq 13, №2, 2025, səh. 98-103*

https://doi.org/10.59849/3006-2403.2025.2.98

***Aləmzər TAĞIYEVA***
***Pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***Gəncə Bölməsi Nizami Mərkəzi***
***E-mail: alamzar@inbox.ru***

# NİZAMİ GƏNCƏVİ İRSİ AKADEMİK TƏDQİQAT VƏ TƏDRİSDƏ

*Açar sözlər*: ədəbiyyatşünas, Orta əsr Azərbaycan ədəbiyyatı, xalq yaradıcılığı, canlı və süni intellekt ( Cİ, Sİ), təlim sistemi

Azərbaycan ədəbişünaslığının Nizami Gəncəvi yaradıcılığı ilə bağlı nəzəri tədqiqatları "Xəmsə" qaynaqlarını üzə çıxarır, ədibin irsinin poetik özəlliyini, "akademiya" statuslu bədii məktəbinin yayılma əsasları və miqyasını sərgiləyir. Bu istiqamətdə klassik elmi yazılar müəllifi, alim-pedaqoq Həmid Araslının araşdırmaları əhəmiyyətli və aktual olaraq müasir tədqiqatçıların nəzərində qalmaqdadır.

"Fikrin kərvanı" kitabında oxuyuruq: "H.Araslı çoxşaxəli alimdir və onun Azərbaycan ədəbiyyatşünaslığında tədqiq etdiyi sahələrin əhatə dairəsi geniş və müxtəlifdir. Həmid Araslı mükəmməl bir müəllim və Azərbaycan ədəbiyyatının müfəssəl araşdırmaçısı, yetkil mətnşünas və folklorşünas, ədəbi əlaqələrin təşkilatçısı və dəyərli insandır" (1, 128).

Onun irsiylə tanışlıq bu qənaətə gəlməyə imkan verir: ədəbiyyatşünas Həmid müəllim fundamental elmi nəticələrin ixtisasçı və tədqiqatçı hazırlığına göstərə biləcək təsirini hesablayan müəllifdir. Buna sübut kimi, 1936-cü ildə təlimin ehtiyacına cavab verən yazdığı 8-ci sinif dərsliyidir. Müəllif ədəbiyyatın mənşəyini aydınlaşdıran və orta əsri əhatə edən məlumatları təqdim etmişdir.

Həmin dərslik ( bəzən müştərək) dəfələrlə yenidən işlənərək nəşr edilir və uzunömürlü kitablar sırasında yerini qoruyur. Təstiqlənən fakt "… bu günə cən yarım əsirdən artıq ədəbiyyat təlimində öncül mənbədir." (1, 287).

"Ali məktəb dərsliyi kimi nəzərdə tutulan "XVII – XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi" 1956-cı ildə bir çox əlyazma, bioqrafik şərh və təzkirələrə istinadan hazırlanıb. .." (3, 287). Dərsliyin beş fəsli işıq üzü görməyən bədii əsərləri şərhə çəkir; geniş oxucu kütləsinin bilmədiyi müəllifləri tanıdırr; dövrün müasir ədəbiyyatının qədim bədii nümunələrlə üzvü bağlarından söz açır və s.

Mükəmməl redaksiya heyyəti (S.Vurğun, M.İbrahimov, M.Arif) üç cildli " Azərbaycan ədəbiyyatı tarixi" adlı fundamental əsər tədrisin ali pilləsi üçün ünvanlanmışdır. Bu əsərin özəlliyi söz sənətinin yaranışından müasirliyə gələn inkişaf mərhələlərinin təhlilindədir.

Ədəbiyyat tarixinin "Qədim dövr - XVIII əsrin sonu" na aid məlumatı I cildin məzmunu əks edir. Redaksiya qrupunu XX əsrin 60-cı illərin görkəmli ədəbiyyatşünasları təşkil edir: H.Araslı, M.Quluzadə, M.Cəfərov .

Dərsliyin bu fəslində aşağıdakı nəzəri məsələlər ətraflı təhlil olunur:

-doğma ədəbiyyatın zəncirvari formalaşan və biri birini tamamlayan dövrləri; - müasir Azərbaycan ədəbiyyatının bünövrəsi.

Konseptual problemlərin elmi təhlili nəticəsində alimlər Azərbaycan ədəbiyyatının qədimdən bu yana gələn yolunu xirdalıqlarla üzə çıxmasına müvəffəq olmuşlar. Onların əminliklə vurğuladığı və isbat etdiyi məqam - ilkin xalq yaradıcılığı nümunələrindən başlayaraq yazılı Azərbaycan ədəbiyyatının mənşəyi şifahi irsdən qaynaqlanır ("Dədə Qorqud", "Koroğlu" dastanı). Tədqiqatçıların fikrincə, sırf bu cür söz abidələri ədəbiyyatın növbəti istiqamətini müəyyənləşdirib inkişafa aparır. Həmçinin bu proses gedişində Şərq

poetik sözün nəhəngləri, məsələn, Xəqani, Nizami, Füzuli, Vaqif irsinin ortaya çıxmasına həlledici təkan verilib .

Dərslik səhifələrində Nəsimi və Xətai, Əssar və Sahib Təbrizi kimi müəllifləri də qeyd edilməsi lazım bilinib. Maraqlı tədris materialdan biri kitabın sonluğunda təqdim olunaraq, " Şifahi xalq ədəbiyyatından qaynaqlanan poeziya" adlanan hissə bədii formaların qarşılıqlı təsirindən bəhs edir.

Demək olar ki, ümumi suskunluq dövründə xalq yaradıcılığının parlaq nümayəndələri aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Məsihi, Vidadinin adlarını çəkmək belə cəsarət və prinsipiallığa söykənirdi.

Zamanında araya-ərsəyə gələn bu nəzəri işi həmdə müəlliflərin didaktik düşüncəsinin təzahürü hesab etmək mümkündür. Akademik fikirin dolayısıyla Azərbaycan dili və ədəbiyyatı təliminə nüfuz etməsi məqsədi müasir ədəbi cərəyanlərinin təməl daşını öyrənmək deməkdir.

Azərbaycan ədəbiyyatı şifahi və yazılı bədii parçaların, bir tərəfdən, xalq sənəti nümunələrin onlara qarşılıqlı nüfuz etməsi klassik əsərlərin təməlidir fikrini təstiqləyir. Belə tezisin qəbul edilməsi vahid anlayış formalaşdırır: mürəkkəb ədəbi-filoloji məkanın mövcudluğunu təstiq edir; "səyyar süjet" lərdə milli kökün izini axtarır və dilin bütün laylarının işlənməsinə və kompozisiya spesifikliyinə işarə tapır.

Ötən illərin məktəb dərsliklərinin tərtib prinsipi, yeniləşən tədris istiqamətlərinə uyğunluğu inkişafın bir tərəfidir. Bu səbəbdən onların istifadə olunan ədəbi açıqlamalara əsasən yenilişməsi zəruridir. Təlimatlar və tövsiyyələr həmin dərsiklərin təkmilləşməsinə gətirərək, innovativ dəyişiklərin kitabın məzmun və strukturunda əksini tapmış olur.

Beləliklə, ədəbiyyatşünaslığın əsas bölmələrini işıqlandıran 10-cu sinif ədəbiyyat dərsliyinin bir qrup müəllifi tənqidçilərin fənn tədrisi metodikasını aparıcı tendensiyaya uyğun qurduğunu vurğulayır. Akademik H.Araslı, F.Köçərli, S.Mümtaz və F.Qasımzadənin xidmətlərini qeyd edərək yazırlar: "Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində onların rolu misilzirdir" (5, 7).

Müşahidələr dərsliyin tekst materialının çeşidli təlim tapşırıqlarının, müxtəlif dərəcəli mətn əvvəli və mətn sonrası misallarının mürəkkəbləşməsinə imkan verir. Nəzərdə tutulan intellectual tapşırıq misallar növləri bunlardı: analitik (I), reproduktiv / dəyişiklər(II) və produktiv / yaradıcı (III).

Bu rakursdan "Xəmsə" mətnlərilə iş yalnız ənənəvi təlim tapşırıqla kifayətlənməməli, qavramanı aktivləşdirən sual, misallara istinad olunmalıdır.

Müasir dövrün tədris üsul və vasitələri nəzərindən Sİ-in imkanlarının istifadəsə aktualdır. Bu baxımdan aşağıdakı şifahi və yazılı iş növlərinə Sİ-in yaddaş bazasında üstünlük verilməlidir.

Məsələn, I qrup mətn əvvəli tapşırıqlar:- sözlər və ifadələrə sinonim /antonim seç;- hərəkət feli işarələ;- sözləri mövzuca qruplaşdır;- söz, ifadələri seç və mətni adlandır ;- qiymətləndirci ifadələr seç.

I və II qrup mətn sonu tapşırıqlar:- mətni mikromətnlərə böl və adlandır;- mətni dialoq /poliloq şəklinə çevir;- mövzuya uyğun atalar sözü və misal göstər;- yanıtmaclar seç və yaz;- xarici dilə tərcümə et;

III qrup mətn sonu tapşırıqlar:-söz və ifadələrə uyğun deyim, yanıltmac qoş;

- ifadələrin seçimini əsaslandır;- süjet üzrə tematik blok formalaşdır;- hadisələrin inkişaf xəttini təklif et;- seçdiyin obraza yazılı müraciət yaz;- hekayənin şifahi təqdimatı üçün referat tərtib et;- mətnə əsasən arqumentlər irəli sür;- brifinqin sorğu vərəqəsini hazırla.

Zamanın tələbinə cavab verə bilən və innovativ tədris sistemini səciyələndirən bir məqam təlimin gedişinə Sİ–in qoşulması: həm müəllimin giriş sözü, həm dialoq-poliloq qurulmasında. Məsələn, yazıçıların bədii irsinin dərk edilməsi həm disput, həm brifinq, həm

polemika şəklində aparılması səmərəlidır. Bu cür təlim işi Cİ-n aktivliyi şərtilə Sİ-n iştirakını da istisna etmir.Bir nümunəyə diqqəti çəkmək istərdik.

Sİ-nə ötürülən "Təbabətin bilicisi Nizami və müasir tibb" mövzusu üzərində interaktiv disputun qedişi: I."HƏR DÖVRÜN NİZAMİSİ" məcmuəsindən " Əlavə"nin nümayişi (müəllif şərhilə). II. Blits-sorğu: Bu sitatları sonlayın ( ekranda "İlyasın Nizamiylə virtual dialoqu"cədvəlindən cavablar):

-Nizami görməmiş olsa da onu, ... ; -Etsə Nizamiyə paxıllıq hər kəs, ...; -Şeri oxunanda bu Nizaminin...; -Nizamiyəm, xəyala dönənin biriyəm mən, ...; -Bu yol elə bilmə ki hər kişinin yoludur...; -Övladsan sən dünyaya, Nizami, ...

(Sİ-ə edilən sorğu nəticəsində sətirlərin ifadəli oxusunun partiturası formalaşır)

III. DİSPUTUN gedişi.

1. Cİ və Sİ-in apardığı işarələnmə əsasında ifadəli oxu:

40 yaşa qədərdi həyat NƏŞƏSİ,
40-da bitib gedir könlün HƏVƏSİ.
50–dən aşdınmı, canın SAĞ olmaz,
AYAQLARDA taqət, GÖZDƏ nur olmaz.
60 çatınca yerə ÇÖKƏRSƏN,
70–də hər ÜZVÜN düşər taqətdən.
Dünyada ƏZİYƏT çəkib boy atdın,
Elə ki, 80-ə, 90-a çatdın,
Ordanda yetirdin özünü 100,
ÖLÜSƏN, diri də görünsən gözə.
("Sirlər Xəzinəsi" )

2. Məna yüklü söz və ifadələrin şifahi təhlili:
Məsələn: NƏŞƏ – ruh yüksəkliyi xoş əhval, şadlıq, fərəh...
3. Dəqiqləşdirin, bunlar tibbin hansı sahəsinə aiddir?
a) terapiya; b) ortopediya; c) nevrolgiya.
Məsələn: HƏVƏS – arzu, maraq, meyil.

EŞQDİ mehrabı uca göylərin,
eşqsiz, ey dünya, nədir DƏYƏRİN?!...
eşqsiz bir adam bir neydir – QIRIQ
yüz canı olsa da, ÖLÜDÜR artıq.

4. Vurğulanan anlayışlar aiddir: a) ədəbiyyat; b) pedaqoqika; c) cərrahiyyə.
5. 50 yaş: HANSI xəstəlik diaqnozudur? – a) ruhi; b)...; c)...
6. 60 yaş: SƏBƏBİ nədir "çökməyin"? (müştərək)
Məsələn: ÇÖKMƏK – əvvəlki zahiri görünüşü itirmək, solmaq, ruhdan düşmək.
7. Bu halın qısa tibbi izahını verin və davam edin (müəllim-tələbə):
Məsələn: ƏLAMƏTLƏR ehtimal etməyə əsasdır ki, ...
8. 70 yaş: TAQƏTDƏN düşməmək üçün menyu təklif et:
Məsələn: TAQƏT – qüc, təpər.
Səhər yeməyi: ...
Nahar: ...
Şam eməyi: ...
9. Sağlam qidalanmaya Nizaminin münasibətini aydınlaşdırın (müəllim-tələbə-Sİ):
SU, İNCİ... ( sözləri işlədərək fikir bildirin)
10. 80, 90, 100 yaşa aid mülahizəni davam et:

Məsələn: Fikrinizcə, şair nə səbəbdən bunu söyləyir ( müəllim-tələbə-Sİ):

a) NƏFƏSİ gələn kəs həm "diri", həm "ölü" sayılanda, birinci halda, ...nəzərə alınar;
b) İkinci halda isə ...

QƏNAƏT: Demək ki, Nizaminin bədii intellektual irsində bədii " anamnez" taptığımız hallarda onu tibbin professional dilində açıqlanması mümkündür. XII əsrin yazarının güclü mütaliyəsi və duyumu bu günün nəbzini tutaraq uzun inkişaf keçmiş təbabətin qaynaqlarından birisidir.

Şairin biz sələflərə belə nəsihəti var:

Aşıb daşsa BİLİYİN,
DİNLƏMƏYƏ çalış sən.
XƏLƏFLƏRDƏN təlim al,
DANIŞMAQA çalışma.

Bəli, bu fikir o dövrün şəraitinə cavab verir, çünki bilik mənbəi yalnız saraylarda qorunan əlyazmalardır. Onlar isə əlçatmaz sərvət sayılaraq Nizami kimi aqillərin vasitəsilə digərlərinə ötürülüb. Həmin ibratamiz sətirlərə söykənərək ona geniş məna vermək olar : DİNLƏ, TƏLİM AL, BİLİK axtar, SUSMA və məqamında DANIŞ!

Sİ-ə ünvanlanan aşağıdaki suallara da cavab alınır: NİZAMİNİN TƏSVİRİYLƏ BUGÜNKÜ AHIL YAŞIN BİOLOJI HƏDDİ VƏ İNSANIN FİZİKİ DURUMU ÜST-ÜSTƏ DÜŞÜRMÜ?

ELƏDİ SƏ – HANSI ASPEKTDƏ? FƏRQLİDİ SƏ, AMİLLƏRİ SADALAYIN.

Müəllif dövrünün təbabətinin səviyyəsini əks edərək insan orqanizmində yaşla əlaqəli dəyişiliklər, səhhətində gedən mənfi hallara işarə edir. Müasir təbabət platformasından müsbət inkişafa nəzər etirsək bu məqamları açıqlamaq mümkündür:-səhiyyənin inkişafı; -qida təhlükəsizliyi proqramı;-sosial amillərin rolunun genişlənməsi, ... Bunun tamamlanması Sİ-ə yönəlir.

Sİ-ə yüklənən CAVABLAR DEPOSU müvafiq cavabların seçimini təmin edir.

1.Yaşlı insanlar qidalanarkən əsasən ağartı məhsullarına önəm verməlidir. Qatıq, süd, kəsmik bol Ca vitamini ilə zəngindilər. 2. Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da.- burada şair hər bir qidanı qədərində istifadəsinin vacibliyini vurğulayır. 3. Qocalaraq insan orqanizmində fizioloji dəyişiliklər artır. Şair bunlara işarə edir. 4. 60 aid sözdə müəllif, məncə, osteoparozdan danışır. Bu xəstəlik zamanı oynaqlarda Ca duzlarının azalması prosesi baş verir, və xəstə şəxsin hərəkət-dayaq sistemində problemlər yaranır. 5. İnsan 70 yaşında taqətdən düşür, bütün üzvlərdə qocalma, kiçilmə müşahidə edilir. 6. Zənnimcə, insan yaşadığı bu hisslər (nəşə, ruh...) tibbin psixo-nevrologiya sahəsində öyrənilir. 7. Düşünürəm ki, yeniliyi öyrənməyə həvəs, maraq öz çalışdığı sahəni daha da mükəmməl bilmək arzusu ən çox pedaqoqika sahəsinə aiddir. 8. 100 yaşla bağlı - kliniki ölümdən danışılır. Bu zaman beyin hüceyrələrinin atrofiyası baş verir, və ürək, tənəffüs sistemi fəaliyyətini davam elədiyinə rəğmən, beyin ölümü gerçəkləşir.

Canlı və Süni intellektin ( müəllim, tələbə və rəqəmsal texnologiya) vəhdətilə təşkil edilən disput "Xəmsə"yə xas olan multidistiplinarlığının aktuallığını vurğulamaqla ədəbiyyatşünaslığın nəzəri və tətbiqi sahəsini genişləndirir.

Şərq söz sənətinin nümunəsi olan Azərbaycan ədəbiyyatının mahiyyəti innovativ tərzdə öyrənilməlidir, çünki burada xalq müdrikliyi yüksək dərəcədə cəmləşmişdir. 1958-ci ildə Füzulinin 400 illik yubileyi qeyd olundu və elmin aparıcı şəxslərlə bağlı fikir söylənildi: " Yubileyinin yüksək səviyyədə keçirilməsi, şairin əsərlərnin nəşrinə hazırlıq, onun haqqında məlumat və araşdırmalar, sərgilərin tərtibatı təmin edildi. Qeyd etmək lazımdır ki, digər mədəniyyət xadimlərilə yanaşı bizim ədəbiyyatşünaslığın veteranı Həmid Araslı da təşkilat komitəsinin üzvüdür." (3, 216). Onun 115 illik yubileyində akademikin Azərbaycan ədəbiyyatşünaslığın klassiki olduğunu əminliklə demək mümkündür.

ƏDƏBİYYAT

1. Fikrin kərvanı. Bakı, 1984.
2. Низами. Библиография. Баку, 2012.
3. Azərbaycan ədəbiyyatı tarixi. II c.Bakı, 1960.
4. Azərbaycan ədəbiyyatı tarixi. I c.Bakı, 1960.
5. Ədəbiyyat. Dərslik, 10 sinif. Bakı, 2005.
6. Tağıyeva A. Hər dövrün Nizamisi. Gəncə, 2024.

***Алемзяр ТАГИЕВА***
***Доктор философии по педагогике, доцент***

**НАСЛЕДИЕ НИЗАМИ ГЕНДЖЕВИ:**
**АКАДЕМИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ И ПРЕПОДАВАНИЕ**
***РЕЗЮМЕ***

*Ключевые слова:* литературоведение, « Литература Азербайджана средних веков», народное творчество, естественный и искусственный интеллект (ЕИ,ИИ), система обучения

Данная статья, раскрывая тезис о многоаспектности литературоведческой деятельности академика Гамида Араслы, опирается на анализ его научного наследия. Говоря о несомненности вклада учёного в отечественное литературоведение в общем, автор акцентирует внимание на скрупулёзность научных наработок Араслы в вопросе изучения литературы средних веков.

Учёный с большей долей уверенности, исходя из материала первоисточников по народному словесному творчеству (дастаны «Деде Горгуд», « Короглы»), однозначен во мнении об их статусе «первоосновы» письменной литературы.

Изданный им в 1936-м году учебник «Литература Азербайджана средних веков» как нельзя лучше иллюстрирует убеждённость автора в неразрывной цепной связи фольклора с художественной литературой на всех основных этапах её становления.

Интересна заключительная часть книги под названием «Поэзия, зародившаяся под влиянием унт», где впервые перечисляются имена не только ашугов (А. Туфарганлы, Хесте Гасыма и др.), но и неизвестных ещё Насими и Хатаи, Ассара и СахибаТебризи.

Актуальность литературоведческих взглядов академика на творчество Низами Гянджеви в статье подтверждается не только размышлениями автора, но практическими наработками, нацеленными на сознательное прочтение и усвоение идеи мультидисциплинарности «Хамсе».

Этого автор достигает, предлагая систему включения (в ходе диспута по «Хамсе») и ресурсов ИИ: загрузка базы информативным материалом, системой речевых задач.

***Aləmzər TAGIYEVA***
***PhD in Pedagogy, Associate Professor***

## THE LEGACY OF NIZAMI GANJAVI: ACADEMIC RESEARCH AND TEACHING
## *SUMMARY*

*Key words:* literary critic, "Medieval Azerbaijani literature", folk creativity, natural and artificial intelligence (NI, AI), learning system

This article, revealing the thesis about the multidimensionality of the literary work of academician Hamid Arasly, is based on an analysis of his scientific heritage. Speaking about the undoubted contribution of the scientist to domestic literary studies in general, the author focuses on the scrupulousness of Arasly's scientific achievements in the study of literature of the Middle Ages.

The scientist, with a greater degree of confidence, based on the material of primary sources on folk verbal creativity (dastans "Dede Gorgud", "Korogly"), is unambiguous in his opinion about their status as the "primary principles" of written literature.

The textbook "Literature of Azerbaijan in the Middle Ages", published by him in 1936, perfectly illustrates the author's conviction in the inextricable chain connection between folklore and fiction at all the main stages of its formation.

The final part of the book, entitled "Poetry that arose under the influence of unts," is interesting, where for the first time the names of not only the ashugs (A. Tufarganly, Heste Gasim, etc.), but also the still unknown Nasimi and Khatai, Assar and Sahib Tabrizi are listed.

The relevance of the academician's literary views on the work of Nizami Ganjavi in the article is confirmed not only by the author's thoughts, but by practical developments aimed at consciously reading and assimilating the idea of the multidisciplinarity of "Khamsa".

The author achieves this by offering a well-thought-out system of text-based assignments and tasks, as well as a scenario for a debate on the topic "Medical knowledge of Nizami.

The author achieves this by proposing a system of inclusion (during the debate on "Hamsa") and AI resources: loading the base with information material, a system of speech tasks.

***Daxil oldu: 20.11.2025-ci il***